# DÖYÜŞSÜZ ZAMAN YOX

Cəmiyyətdəki kəm-kəsirləri görmək, qüsurları ifşa etmək, ümumiyyətlə, insanların mənəvi sağlamlığı naminə döyüşə girmək çətindir. Çünki tənqid elədiyin cəbhənin adamları çox asanlıqla birləşir. Xüsusilə, qəddarlıqlarına uyğun olaraq tənqid edəni çıxdaş etmək, onu məhv etmək üçün bütün üsul və vasitələrdən yararlanırlar. Satirikləri, tənqidi realizm ustadlarını xatırlamaq, onların taleyini yada salmaq bəs edərdi ki, cəmiyyətin qüsurlarını tənqid edən şairlərin necə böyük fədakarlıq göstərdiklərini anlayasan. Qəzəblənmiş kütlənin önündə sinəni gərib, hər cür tənəyə, təhdidə dözə bilmək qəhrəmanlıqdır. Mirzə Ələkbər Sabir təsadüfi demirdi ki, “Bənzərəm bir qocaman dağa ki, dəryada durar”. Həqiqətən, Sabir bir qocaman dağ kimi üstünə yeriyənlərin qabağında mərdanəliklə durur, öz əqidəsinin, məsləkinin yolundan çəkilmirdi.

Hikmət Mahmud yaradıcılığında satira janrını əsas istinad kimi götürməsə də, hərdən tənqidi-satirik şeirlər yazıb və cəmiyyətin tənqid olunmalı tərəflərini cəsarətlə açıb göstərib. “Sabir qağa” adlı satirik şeirində dövrümüzün o adamlarını tənqid edir ki, onlar ümumi inkişafa mane olur. Hətta indiki dünyanın elmlə nəfəs aldığı bir zamanda dini fanatizmi yaymaqla qazanc götürməyə çalışır, insanların azad düşüncəsini zəbt etməklə onları öz əsarətlərində saxlamaq istəyirlər.

Hikmət Mahmud Azərbaycanın ünlü klassiki Mirzə Ələkbər Sabir düşüncəsini, mövqeyini, əqidəsini ən kəskin silah hesab edir. O, “Sabir qağa” şeirində sələfi ilə dialoqa girməyə çalışır. Sanki onun ruhu ilə dilləşir, ondan məsləhət alır. Əgər belə demək mümkünsə, başlamaq istədiyi savaşda onu özünə güvənc yeri bilir:

Sabir qağa, nə düşmüsən ortaya,
Sataşırsan axunda, gah mollaya.
Deyirsən ki, sizdən yazım, yazmayım
Yoxdu mənim nə həmkarım, nə tayım.
A kişi yaz, lap yaxşı eyləyirsən,
Amma qardaş, özündən bərk deyirsən.

Sələfi onu yaxşı başa düşür. Ona xeyir-dua verir ki, cəsarətli olsun, savaşa inamla girsin, tənqid etmək istədiklərini axıracan ifşa eləsin. Amma Sabirin ruhu xələfinə xəbərdarlıq da eləyir. Çünki lovğalar, özündən razılar çox vaxt savaşı axıra çatdıra bilmirlər. Əsərin lirik qəhrəmanı sələfin gözündə özündən razıdır, ona görə də sələf xəbərdarlıq etməyi özünə borc bilir.

Müəllif lirik qəhrəmanın dilindən qarşılaşdığı mənzərəni təsvirə başlayır. Sonra da baş verən hadisələr haqqında məlumat verir. Məlum olur ki, olan-olmaz hadisələr haqqında “Həftəbacı” xəbərlər gətirib. Doğrudur, o, hər cür xəbəri bilsə də, hamsını olmasa da, bəzilərini danışır. Lirik qəhrəmanın cəsarəti var. O, çox vaxt istəyir ki, hər şeyi açıb töksün, ağartsın. Amma sələfi - yəni Sabir qağası ona məsləhət eləyir ki, vaxtı gəlməmiş çox şeyi açıb ağartmasın. Yəni bir az ehtiyyatlı olsun. Lap elə axund, molla məsələsində olduğu kimi:

Həftəbacı üç gündür ki, bizdədir,
Çox şeyləri sənə demir, gizdədir.
Sənin gücün əməldə yox, sözdədir
A kişi gəl, hər boş şeyə baş qatma,
Onun-bunun bostanına daş atma.
Axund, mola söhbətini unut sən,
Yoxsa, vallah, min bəlaya düşərsən.

Ayrı-ayrı obrazların adları çəkilir. Tənqiddən sonra onların düşdüyü vəziyyət yada salınır. Məlum olur ki, tənqid lap gülldədən də betərdir. Bəzən elələri tapılır ki, ifşa olunmağın qorxusundan intihar edirlər. Ona görə də lirik qəhrəmanın istinadı bir qədər də ehtiyatlı olmağı təlqin edir. Yoxsa, bütün aləm hamı onun üstünə qalxar, özünə düşmən bilər:

Məmmədəlidən yazdın özün öldürdü,
Fatmanisə səni elə güldürdü.
Hər bir işin, vallah, min dərdi-sərdi,
Əl çəkginən bu əməldən, ay qağa,
Bəxt gətirib, qılınc çalma sol-sağa.
El-obanı düşmən etmə özünə,
Sözü söylə günahkarın üzünə.

Amma bizim lirik qəhrəmanımız da özünə sığan deyil, o da yeri gəldikcə Sabir qağasına üz tutur, məsləhətlərini əsirgəmir. Yəni Sabir qağası deyəndə ki, bir az ehtiyatlı ol, hər kəsi qırıb çatma, camaatı özünə düşmən eləmə. Onda belə çıxır ki, o məsləkindən çıxıb, tənqid silahını yerə qoyur. Bununla isə bizim ədəbi qəhrəmanımız barışmır. Savaşı axıracan aparmağı üstün tutur. Ona görə də Sabir qağasına cəsarətlə etiraz edir:

Sabir qağa! Gözlə, bir az məsləki,
Orda-burda söz deməyə nə var ki,
Söz deyəndə o sözdə olsun çəki,
Sən aləmi qatıb-qarışdırmısan,
Deyən bir az düz yolunu çaşmısan.
Bax, hampalar çəkir səni sınağa,
Vallah, sənin işin şuluqdur, qağa.

Bu yerdə lirik qəhrəmanın Cəlilləri, Xəlilləri yada salması təsadüfi deyil, istər-istəməz biz də burada Mirzə Cəlili, Əliqulu Qəmküsarı, Əli Nəzmini, Ömər Faiq Nemanzadəni, Üzeyir bəy Hacıbəylini... Rüfət Əhmədzadəni, Baba Pünhanı, Mətləb Nağını... xatırlamalı oluruq:

Cəlilləri, Xəlilləri sal yada,
Gəl özünü salma bu yolla oda.
Pislik ilə heç kəs qalmır dünyada,
Sən özünü od-atəşə salmısan,
Özün də ki, meydanda tək qalmısan.
Yaxşıların yaxşısından yazgınan,
Azğınların qəbirlərin qazgınan.

Satiriklər can savaşına çıxırlar. Cəsarətləri ilə antipodlara meydan oxuyurlar. Onların hər misrası kiminsə əhvalını korlayır, ovqatını dağıdır, yuxusunu qaçırır. Şübhəsiz, söz xəncəri ilə yara alan hər kəs qisas almaqdan çəkinməyəcək. Necə olsa da, əqidə adamı savaş yolunu seçmiş satirik şair lirik qəhrəmanını yüksək dözümdə görmək istəyir. Onu açıq-açığına, mərdanə savaşda inamlı görmək istəyir:

Söz deyəndə cəsarətin olmasa,
Yaxın, uzaq o sözdən həzz almasa,
Bəzən sözün min qalmaqal salmasa,
Sən o sözü nə danışma, nə yazma.
Öz yolunu sən heç zaman gəl azma.
Bu dünyanın təməli söz üstədir,
Söz dəyərin kim bilmirsə xəstədir.

Bir sözlə, bizim satirik Sabir ənənəsini davam etdirməyə çalışır. O, inanır ki, bu dünyanın təməli söz üstündədir. Kim sözün dəyərini bilmirsə, onun ruhunun sağlamlığına şübhə var:

Hikmət Mahmud şeirinin sonunda yenə dini fanatizmə münasibətini bildirir. İnsanları mənən sındırıb tərksilah etməklə onların müstəqil düşüncə imkanlarını əlindən almaqla öz məqsədlərinə yetmək istəyən yalançı ruhanilərə güzəştsiz mövqedə dayanır:

Axund, molla yığışıblar bir yerə,
Səndən möhkəm şikayət var göylərə.
Deyirlər ki, Allahı da o danır,
Saqqal qoyub, saqqalından utanmır.
Mirzə! Çalış bu kəslərdən uzaq dur,
Yoxsa, qardaş, işin yaman şuluqdur!

Nə qədər tərəqqi, nə qədər inkişaf olsa da, nöqsanlar, qüsurlar da yeni metod və üsullarla silahlanaraq yaşamaqdadır. Əgər Hikmət Mahmud özünü Axundovun, Mirzə Cəlilin, Sabirin... varisi bilirsə, o görkəmli simaların yaratdığı tiplərin də varisləri var və bu gün də yaşamaqdadı. Demək, mübarizə davam edir; döyüşsüz zaman yox...

Şair Hikmət Mahmudun yaradıcılığında satira kəmiyyət baxımından əsas yer tutmasa da, ciddi yanaşma baxımından kifayət qədər diqqəti çəkəndir. Çünki nə qədər həyatın kəm-kəsirləri var, nə qədər insanlığa zidd insan əməlləri var, şair olan kəs özünü rahat hesab edə bilməz. Şairin, ziyalının birinci borcu vətəndaşlıq missiyası öz dövrünün saflığı, təmizliyi, mənəvi sağlamlığı uğrunda mübarizə aparmaqdır.

H.Mahmud da yaşının bu çağında satira janrına məhz vətəndaşlıq mövqeyinin tələbi kimi yanaşır. İnsan özünün kamillik mövqeyini həyatın bütün kəmkəsirlərinə cavab verməsi ilə təsdiq edə bilər. Bu mənada, H.Mahmudun şeirlərindəki sərt mövqeyi biz təbii qəbul etməliyik.

Düşünmək olar ki, nə qədər mübariz insanlar var, bir o qədər cəmiyyət öz ahəngini qoruyub saxlaya biləcək. Milli ruha yad, insanlığa yabançı olan düşüncə tərzi cəmiyyətin mənəvi mühitinə bəd əməllərlə təcavüz edir, cəmiyyətin sağlam, mənəvi harmoniyasını dağıdır. Klassiklərin təbirincə desək, Cahil adam dağıdır, aqil adam qurur, yaradır. Məişət düşüncəsindən tutmuş, ali-siyasi mərtəbələrə qədər ağ və qara, xeyir və şər, yaxşı və yaman qarşılaşmadadır. Çox təəssüf ki, bəzən şərin, iblisin tərəfində olan qüvvələr birləşə bilir. Ancaq xeyir qüvvələri təmsil edənlər şər qüvvələri təmsil edənlərə nisbətən daha gec səfərbər olurlar. Son nəticədə qələbə həmişə xeyirin tərəfindədir.

Hikmət Mahmud tənqidi-satirik şeirlərində həmişə xeyirin tərənnümçüsü, şərin düşmənidir.

*04.11.2020*